Роль держави у становленні та сталому розвитку автомобільного транспорту в Україні є багатогранною та охоплює правове регулювання, розвиток інфраструктури, стимулювання інновацій, підвищення екологічної ефективності та забезпечення безпеки дорожнього руху. Ефективна державна політика в цій сфері є запорукою економічного зростання, соціального прогресу та інтеграції України у світову транспортну систему.

В умовах глобальних викликів, таких як зміна клімату та урбанізація, держава повинна спрямовувати свої зусилля на створення екологічно чистої, ефективної та безпечної транспортної системи, яка буде відповідати потребам сучасного суспільства та сприяти сталому розвитку України.

## AZƏRBAYCANDA QADIN SAHİBKARLIĞININ İNKİŞAFI SAHƏSİNDƏ OLAN PROBLEMLƏR

*Əliyev R. R., t.ü.f.d.*
*Azərbaycan Texnologiya Universiteti*

Sahibkarlıq – bir çox keyfiyyətlərin, xarakter xüsusiyyətlərin və səriştələrin birləşməsinin nəticəsi olan bir bacarıqdır. Sahibkarlığın inkişaf etdirilməsində bir çox təşəbbüskar, fədakar insanların birliyi olmalıdır. Ancaq fədakar, çalışqan, yaradıcı və bacarıqlı sahibkarlar sahibkarlıq prosesini inkişaf etdirmək üçün kifayət deyil. Sahibkarlıq sahibkarın müəyyən bir mühitdə həyata keçirdiyi tədbirlər prosesinə aiddir. Deyə bilərik ki, sahibkarlıq sahibkarın və ətraf mühitin hərəkətlərinin məcmusudur.

Qadınlar arasında kiçik müəssisələrin yaradılması tendensiyası müxtəlif səbəblərdən asılıdır. Birincisi, qadınlar evinə əlavə gəlir təmin etmək üçün öz bacarıqlarından istifadə edərək kiçik biznes qururlar. İkincisi, evin gəlirindəki azalmağa paralel olaraq qadınlar hər hansı bir ödənişli işlə təmin olunurlar. Bununla belə, müvafiq təhsil və bacarıqları olmayan qadınlar iş tapa bilmirlər və buna görə də məşğulluq ödənişli işdə çalışmaq istəyən və iş tapa bilməyən qadınlar üçün seçimdir. İqtisadi zərurət, qeyri-kafi ailə gəliri və ya əlavə gəlir ehtiyacı, ailədən birinin ölümü və ya boşanma kimi ailə quruluşu və ailədaxili hadisələr, qəbul edilə bilməz iş şəraiti, qadın və kişi işçilər arasındakı ödəniş fərqliliyi, gəlir bərabərsizliyi, peşə ayrımı, (qadınların üst addım rəhbərlik mövqelərinə çatmasına maneə törədici davranış və təşkilati ön hadisələrdən qaynaqlanan görünməz süni əngəllər), yüksəlmələrindəki maneələr mənfi faktorlardır, səbəblərdir. Dünyada qadınları sahibkarlığa sövq edən ən əhəmiyyətli faktorlardan biri gəlir əldə etməkdir.

Bu gün dünya əhalisinin 20%-ni təşkil edən təxminən 1,2 milyard insan gündə 1 dollar olan mütləq yoxsulluq xətti altında yaşamağa çalışarkən, mikro maliyyə sistemində yoxsulluğun azaldılmasına, gəlirlərin artmasına və xüsusilə, kənd yerlərində məşğulluğun artmasına səbəb olur. Bu dəstək üçün nəzərdə tutulan bir çox müdaxilə dövlət strategiyası kimi qəbul edilir. Bu yolla kasıb insanların və xüsusilə də, qadınların öz bizneslərini başlamasına görə mikro maliyyələşdirmə əla bir seçimdir.

İndi isə sahibkarlığın böyüməsinə nəyin mane olduğunu nəzərdən keçirək. Bunlar pis sahibkarlardır, yoxsa sağlam olmayan mühit və ya hər ikisi birlikdə?

Şübhəsiz ki, Azərbaycanda qadın sahibkarlığının inkişaf tempi iqtisadi cəhətdən inkişaf etmiş digər ölkələrlə müqayisədə aşağıdır. Qadın sahibkarlığının coğrafiyasının genişlənməsinə maneə törədəcək amillər aşağıdakılardır:

- səriştəsizlik və zəif idarəetmə bacarığı;
- aşağı öhdəlik səviyyəsi;
- adət və ənənələrin tətbiq etdiyi məhdudiyyətlər;
- yüksək riskli fəaliyyət;
- motivasiyanın olmaması;
- infrastrukturun olmaması;
- sahibkarlıq qabiliyyətinin olmaması;
- iş adamlarının aşağı statusu;
- aşağı məhsul keyfiyyəti;
- işçilərin aşağı əmək haqqı və s.

Səbəblər və ya maneələr çoxdur. Həvəskar sahibkar öz müəssisəsinin fəaliyyətinə əzmlə və böyük həvəslə başlayır, lakin bəzi hallarda işləməyən sex, sahə, bölmə ilə başa çatır. Sahibkarın səriştəsizliyi və uğursuzluğunda hər iki ətraf mühit amili günahkardır.

Sahibkarlığın stimullaşdırılması həm daxili, həm də xarici amillərdən asılıdır. Uğurlu sahibkar olmaq üçün, ilk növbədə, proqnozlaşdırmanı, planlaşdırmanı, əsas və köməkçi materialların dəyərini düzgün qiymətləndirməklə praktik fəaliyyətin təhlilini düşünülmüş şəkildə işləyib hazırlamalıdır. Bəs belə sahibkarları necə dəqiq müəyyənləşdirmək olar?

Bəzi sahibkarlıq istiqamətlərinin inkişaf tempinin zəif olmasının səbəbi kimi xarici ölkələrdən idxal olunan malların aşağı qiymətə satılması ilə izah olunur. Bunun üçün, düşünürük ki, dövlət tərəfindən sahibkarlığın inkişafı üçün müəyyən stimullaşdırıcı addımların atılması nəzərdən keçirilməlidir.

Sahibkarlıq bir gecədə inkişaf edə bilməz. Qadın sahibkarlıq subyektlərinin böyüməsi, əsasən, onun inkişaf səviyyəsindən asılıdır. Robert Garner L. sitat gətirir: "İnkişaf ruh halıdır. İnsanlar fiziki mühitlərini dəyişdirmədən əvvəl özlərini inkişaf etdirməlidirlər və bu yavaş bir prosesdir..... buraya siniflər və irqlər arasındakı münasibətlərdəki dəyişikliklər daxildir. Bunun üçün hökumət təşkilatlarının və fəaliyyətlərinin təkmilləşdirilməsi, sosial qurumların, məktəblərin, məhkəmələrin və səhiyyə xidmətlərinin genişləndirilməsi tələb olunur. Məsuliyyətsiz düşüncə və davranış vərdişləri, intellektin aşağı səviyyədə olması inkişaf üçün ən böyük maneələrdir".

Yuxarıda qeyd olunan təhsil və sosial amillərə aşağıdakıları aid edə bilərik: sahibkarlıq fəaliyyəti üçün müvafiq ixtisas təhsilinin olmaması; müstəqilliyin olmaması; ailə yükü; uşaqların tərbiyəsi və ev işləri üçün məsuliyyət; əlverişsiz ailə vəziyyəti; həyat yoldaşı və digər ailə üzvləri tərəfindən narazılığın yaranması və s..

Qadın sahibkarlığının inkişafında oxşar problemlər mövcuddur. Araşdırma nəticəsində məlum olmuşdur ki, yuxarıda göstərilən problemlər qadınlar arasında sahibkarlığın inkişafına, qadın sahibkarlığının sayının artmasına mane olur.

Eynilə də, iqtisadi amillər ola bilər: qeyri-kafi hərəkətlilik; kredit almaqda problem; istismar; maliyyə çatışmazlığı; texniki biliklərin olmaması; xammal və material çatışmazlığı və s.

Yuxarıda deyilənləri nəzərə alaraq, kütləvi informasiya vasitələrində qadın sahibkarlarının rolunun artırılması sahəsində marifləndirici tədbirlərin təşkil olunması, Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində qadın sahibkarlara vergi və gömrük sahəsində müəyyən güzəştlərin edilməsi tövsiyə olunur.

Ədəbiyyat


1. Robert L. Garner "The United States and the Developing Nations", 1972.


## TƏHSİLDƏ SOSİAL VƏ İQTİSADİ İNKİŞAFIN QARŞILIQLI ƏLAQƏSİ: İNKLUZİV TƏHSİLİN ROLU VƏ TƏSİRLƏRİ


*Tanrıverdiyeva Zülfiyyə Vaqif qızı, müəllim*
*Mingəçevir Dövlət Universiteti*


Təhsil, cəmiyyətin sosial və iqtisadi inkişafının əsas həlqələrindən biridir. Müasir dövrdə təhsil yalnız fərdi inkişafın deyil, həm də sosial və iqtisadi tərəqqinin təmin olunmasının əsas vasitəsidir. Sosial və iqtisadi inkişafın təhsil ilə sıx əlaqəsi, ölkələrin tərəqqisində və sosial bərabərliyin təmin edilməsində təhsilin fundamental rolunu vurğulayır. Bu kontekstdə inklüziv təhsil, sosial ədalətin və iqtisadi inkişafın gücləndirilməsi baxımından vacib bir yanaşma kimi önə çıxır. Bu tezisin məqsədi, təhsildə sosial və iqtisadi inkişaf arasındakı qarşılıqlı əlaqəni araşdırmaq və inklüziv təhsilin bu sahələrə təsirini təhlil etməkdir.

Təhsilin sosial və iqtisadi inkişafla əlaqəsi. Təhsilin sosial və iqtisadi inkişafla əlaqəsi çoxşaxəli və dərin bir mövzudur. Yüksək keyfiyyətli və hər kəs üçün əlçatan əsas təhsil, yoxsulluğun azaldılmasında mühüm rol oynayır və insanların yaşayış şəraitini yaxşılaşdırır. Təhsil, fərdlərə daha yaxşı həyat şərtləri qurmağa və öz potensiallarını tam şəkildə həyata keçirməyə imkan yaradır. Eyni zamanda, təhsilin genişlənməsi cəmiyyətin daha inklüziv və iqtisadi cəhətdən dayanıqlı olmasına təkan verir. İnsanlar əldə etdikləri bilik və bacarıqlar sayəsində daha məhsuldar və sosial cəhətdən fəal olurlar, bu isə cəmiyyətin inkişafına müsbət təsir göstərir. Beləliklə, təhsil, həm fərdi inkişaf, həm də cəmiyyətin ümumi rifahı üçün əsas amil olaraq, iqtisadi bərabərsizliklərin aradan qaldırılmasına və sosial ədalətin təmin edilməsinə xidmət edir[1, s.5]. Təhsil səviyyəsinin yüksəlməsi, cəmiyyətin ümumi rifahını artırmağa, işsizlik səviyyəsini azaltmağa, iqtisadi məhsuldarlığı artırmağa və sosial ədaləti təmini etməyə kömək edir. Eyni zamanda, təhsilin keyfiyyəti və əlçatanlığı, cəmiyyətin fərqli təbəqələri arasında bərabərsizlikləri azaldır, sosial inklüzivliyi təmin edir.